# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); 2024, № 2, maddə 236, № 5 (II kitab), maddə 575, № 7, maddə 910; 2025, № 4 (II kitab), maddə 424, № 7, maddə 697) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı”nın “Memarlıq abidələri” bölməsinin 18-ci bəndinin “Yerləşdiyi ünvan” sütununda “Cuğa” sözü “Gülüstan” sözü ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” üzrə:

2.1. “Memarlıq abidələri” bölməsinin “Yerləşdiyi ünvan” sütunu üzrə:

2.1.1. “Xocavənd rayonu” hissəsi üzrə:

2.1.1.1. 228-ci bənddə “Traxtik” sözü “Zoğalbulaq” sözü ilə əvəz edilsin;

2.1.1.2. 230-cu bənddə “Sakuri” sözü “Hünərli” sözü ilə əvəz edilsin;

2.1.1.3. 231-ci və 232-ci bəndlərdə “Süsənlik” sözü “Susanlıq” sözü ilə əvəz edilsin;

2.1.1.4. 233-cü bənddə “Xsaberd” sözü “Çaylaqqala” sözü ilə əvəz edilsin;

2.1.1.5. 235-ci və 236-cı bəndlərdə “Sur” sözü “Sor” sözü ilə əvəz edilsin;

2.1.1.6. 237-ci bənddə “Mestağlar” sözü “Böyük Tağlar” sözləri ilə əvəz edilsin;

2.1.1.7. 239-cu bənddə “Qavaxan” sözü “Gavahın” sözü ilə əvəz edilsin;

2.1.1.8. 241–245-ci bəndlərdə “Qatsi” sözü “Çörəkli” sözü ilə əvəz edilsin;

2.1.1.9. 246-cı bənddə “Maçqalaşen” sözü “Cütçü” sözü ilə əvəz edilsin;

2.1.1.10. 247-ci bənddə “Sitoraşen” sözü “Şıx Dursun” sözləri ilə əvəz edilsin;

2.1.1.11. 248-ci və 249-cu bəndlərdə “Tağavard” sözü “Tağaverd” sözü ilə əvəz edilsin;

2.1.1.12. 250-ci bənddə “Niki” sözü “Cəmiyyət” sözü ilə əvəz edilsin;

2.1.2. “Xocalı rayonu” hissəsi üzrə:

2.1.2.1. 253-cü və 254-cü bəndlərdə “Çanaxçı” sözü “Çanaqçı” sözü ilə əvəz edilsin;

2.1.2.2. 256-cı bənddə “Xansıx” sözü “Xanyeri” sözü ilə əvəz edilsin;

2.1.2.3. 259-cu bənddə “Maşxmaat” sözü “Baharlı” sözü ilə əvəz edilsin;

2.1.2.4. 264-cü bənddə “Anabert” sözü “Xanabad” sözü ilə əvəz edilsin;

2.1.3. “Tovuz rayonu” hissəsinin 381-ci bəndində “Kirzan” sözü “Hunanlar” sözü ilə əvəz edilsin;

2.1.4. “Culfa rayonu” hissəsi üzrə:

2.1.4.1. 401-ci bənddə “Əbrəqunis” sözü “Əbrəqunus” sözü ilə əvəz edilsin;

2.1.4.2. 402-ci bənddə “Kirnə” sözü “Kırna” sözü ilə əvəz edilsin;

2.1.4.3. 405-ci bənddə “Camaldin” sözü “Camaldın” sözü ilə əvəz edilsin;

2.1.5. “Gülüstan” Tarix-Mədəniyyət Qoruğu” hissəsinin 406–409-cu bəndlərində “Cuğa” sözü “Gülüstan” sözü ilə əvəz edilsin;

2.1.6. “Ordubad rayonu” hissəsinin 417-ci bəndində “Dər” sözü “Darkənd” sözü ilə əvəz edilsin;

2.2. “Arxeoloji abidələr” bölməsinin “Yerləşdiyi ünvan” sütunu üzrə:

2.2.1. “Ağcabədi rayonu” hissəsinin 748-ci bəndində “Üzeyirkənd” sözü “Avşar” sözü ilə əvəz edilsin;

2.2.2. “Cəlilabad rayonu” hissəsi üzrə:

2.2.2.1. 890-cı bənddə “Navtuluq” sözü “Söyüdlü” sözü ilə əvəz edilsin;

2.2.2.2. 903-cü bənddə “Allar” sözü “Alar” sözü ilə əvəz edilsin;

2.2.2.3. 910-cu bənddə “Svetlaya zarya” sözləri “Muğan” sözü ilə əvəz edilsin;

2.2.3. “Göygöl rayonu” hissəsi üzrə:

2.2.3.1. 1086-cı bənddə “Mirzik” sözü “Şəhriyar” sözü ilə əvəz edilsin;

2.2.3.2. 1088-ci bənddə “Bolçalı” sözü “Balçılı” sözü ilə əvəz edilsin;

2.2.3.3. 1090-cı bənddə “Yeni Əli Bayramlı” sözləri “Mollacəlilli” sözü ilə əvəz edilsin;

2.2.4. “Xocalı rayonu” hissəsi üzrə:

2.2.4.1. 1124-cü bənddə “Seyidşən” sözü “Seyidbəyli” sözü ilə əvəz edilsin;

2.2.4.2. 1125-ci bənddə “İlis” sözü “Qarakötük” sözü ilə əvəz edilsin;

2.2.4.3. 1129-cu və 1130-cu bəndlərdə “Saruşen” sözü “Dağyurdu” sözü ilə əvəz edilsin;

2.2.5. “Qazax rayonu” hissəsi üzrə:

2.2.5.1. 1239-cu və 1240-cı bəndlərdə “Əli Bayramlı” sözləri “Aslanbəyli” sözü ilə əvəz edilsin;

2.2.5.2. 1272-ci bənddə “Əzizbəyli” sözü “Hüseynbəyli” sözü ilə əvəz edilsin;

2.2.6. “Qusar rayonu” hissəsinin 1419-cu bəndində “İmamqulu” sözü “İmamqulukənd” sözü ilə əvəz edilsin;

2.2.7. “Oğuz rayonu” hissəsinin 1641-ci və 1642-ci bəndlərində “Vardanlı” sözü “Kərimli” sözü ilə əvəz edilsin;

2.2.8. “Şəki rayonu” hissəsinin 1731–1733-cü bəndlərində “Fazil” sözü “Fazıl” sözü ilə əvəz edilsin;

2.2.9. “Culfa rayonu” hissəsi üzrə:

2.2.9.1. 1882-ci və 1883-cü bəndlərdə “Əbrəqunis” sözü “Əbrəqunus” sözü ilə əvəz edilsin;

2.2.9.2. 1898-ci və 1899-cu bəndlərdə “Camaldin” sözü “Camaldın” sözü ilə əvəz edilsin;

2.2.9.3. 1900-cü bənddə “Noraşam” sözü “Göydərə” sözü ilə əvəz edilsin;
2.2.9.4. 1915-ci və 1916-cı bəndlərdə “Kirnə” sözü “Kırna” sözü ilə əvəz edilsin;
2.2.9.5. 1919 –1921-ci bəndlərdə “Cuğa” sözü “Gülüstan” sözü ilə əvəz edilsin;
2.2.10. “Şahbuz rayonu” hissəsi üzrə:
2.2.10.1. 2080-ci, 2081-ci və 2084-cü bəndlərdə “Yuxarı Remeşin” sözləri “Güney Qışlaq” sözləri ilə əvəz edilsin;
2.2.10.2. 2082-ci və 2083-cü bəndlərdə “Aşağı Remeşin” sözləri “Qızıl Qışlaq” sözləri ilə əvəz edilsin;
2.2.10.3. 2091-ci bənddə “Arınc” sözü “Ayrınc” sözü ilə əvəz edilsin;
2.2.10.4. 2096-cı bənddə “Tırkeş” sözü “Türkeş” sözü ilə əvəz edilsin.
3. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı” üzrə:
3.1. “Memarlıq abidələri” bölməsinin “Yerləşdiyi ünvan” sütunu üzrə:
3.1.1. “Cəlilabad rayonu” hissəsinin 4178-ci bəndində “Pokrovka” sözü “Günəşli” sözü ilə əvəz edilsin;
3.1.2. “Gədəbəy rayonu” hissəsinin 4256-cı bəndində “Kilsəli” sözü “Turşsu” sözü ilə əvəz edilsin;
3.1.3. “Xocavənd rayonu” hissəsi üzrə:
3.1.3.1. 4318-ci bənddə “Tağavard” sözü “Tağaverd” sözü ilə əvəz edilsin;
3.1.3.2. 4325-ci bənddə “Sakuri” sözü “Hünərli” sözü ilə əvəz edilsin;
3.1.3.3. 4326-cı bənddə “Sur” sözü “Sor” sözü ilə əvəz edilsin;
3.1.3.4. 4328-ci bənddə “Xsaberd” sözü “Çaylaqqala” sözü ilə əvəz edilsin;
3.1.3.5. 4331-ci bənddə “Domi” sözü “Binə” sözü ilə əvəz edilsin;
3.1.3.6. 4332-ci bənddə “Şaqah” sözü “Şahyeri” sözü ilə əvəz edilsin;
3.1.3.7. 4333-cü bənddə “Noraşen” sözü “Günəşli” sözü ilə əvəz edilsin;
3.1.3.8. 4334-cü bənddə “Banazur” sözü “Binədərəsi” sözü ilə əvəz edilsin;
3.1.3.9. 4335-ci bənddə “Kemraçuk” sözü “Qırmızıqaya” sözü ilə əvəz edilsin;
3.1.3.10. 4339-cu bənddə “Anaku” sözü “Ağdam” sözü ilə əvəz edilsin;
3.1.3.11. 4341-ci bənddə “Zamzur” sözü “Dərəkənd” sözü ilə əvəz edilsin;
3.1.4. “Lerik rayonu” hissəsinin 4791-ci bəndində “Azərbaycan” sözü “Günəşli” sözü ilə əvəz edilsin;
3.1.5. “Lənkəran rayonu” hissəsinin 4841-ci və 4842-ci bəndlərində “Viyan” sözü “Viyən” sözü ilə əvəz edilsin;
3.1.6. “Neftçala rayonu” hissəsinin 4935-ci bəndində “Z.O.Kultuk qəsəbəsi” sözləri “Neftçala şəhəri” sözləri ilə əvəz edilsin;
3.1.7. “Oğuz rayonu” hissəsinin 4943-cü bəndində “Vardanlı” sözü “Kərimli” sözü ilə əvəz edilsin;
3.1.8. “Zaqatala rayonu” hissəsi üzrə:
3.1.8.1. 5225-ci bənddə “Verxiyan” sözü “Bəhmətli” sözü ilə əvəz edilsin;
3.1.8.2. 5263-cü bənddə “Oxoxdərə” sözü “Axaxdərə” sözü ilə əvəz edilsin;
3.1.9. “Ordubad rayonu” hissəsinin 5342-ci bəndində “Dər kəndi (Dər türbəsinin yanında)” sözləri “Darkənd kəndi” sözləri ilə əvəz edilsin;
3.1.10. “Şahbuz rayonu” hissəsinin 5571-ci bəndində “Əzizbəyov” sözü “Daylaqlı” sözü ilə əvəz edilsin;
3.2. “Arxeoloji abidələr” bölməsinin “Yerləşdiyi ünvan” sütunu üzrə:
3.2.1. “Culfa rayonu” hissəsinin 6071-ci bəndində “Əbrəqunis” sözü “Əbrəqunus” sözü ilə əvəz edilsin;
3.3. “Dekorativ-tətbiqi sənət nümunələri (Xalq daş heykəltəraşlıq abidələri)” bölməsinin “Yerləşdiyi ünvan” sütunu üzrə:
3.3.1. “Lerik rayonu” hissəsinin 6248-ci bəndində “Azərbaycan” sözü “Günəşli” sözü ilə əvəz edilsin;

3.3.2. “Şahbuz rayonu” hissəsinin 6290-cı və 6291-ci bəndlərində “Gecəzur” sözü “Ağbulaq” sözü ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 9 ” “ yanvar ” 2026-cı il

№ 6